# Nərgiztəpədən baxanda...

Bu gün Xocavəndin Ermənistan silahlı birləşmələri tərəfindən işğalından 23 il ötür. Ağdam-Füzuli avtomobil yolu boyunca dağətəyi düzənlikdə yerləşən Xocavənd rayonu 1991-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edildikdən sonra Martuni və Hadrut rayonlarının ərazisində yaradılıb. 1458 kvadratkilometr sahəsi olan bu rayonda 1 şəhər, 2 qəsəbə, 81 kənd vardı.




1991-ci il oktyabrın 30-da rayonun azərbaycanlılar yaşayan qədim Tuğ və Salakətin kəndləri, noyabrın 19-da Xocavənd , 1992-ci il yanvarın 9-da Haxullu kəndləri işğal edilib... 1992-ci il oktyabrın 2-də rayonun Əmirallar, Muğanlı və Kuropatkino kəndləri, 1993-cü il iyulun 23-də Günəşli, avqustun 20-də Xətai kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilərək yandırılıb. Öz ata-baba torpaqları uğrunda düşmənə qarşı mərdliklə vuruşan xocavəndlilərdən 145 nəfər şəhid olub.

Artıq xeyli vaxtdır o ağır günlərdə, bir növ, çaşbaş qalan millət indi sabahına daha nikbin baxır, öz dostunu-düşmənini seçib ayırır. Nə qədər qəribə də olsa, bu millətin dostu da, düşməni də həmişə öz yanındadır. Bizdən tələb olunan yalnız budur: düşməni tanıyıb bilmək, seçib qiymətləndirmək və bir daha unutmamaq. Bir də bu gün zorla qonşu olmağa, qonşuluq münasibətlərində olmağa "məhkum" edildiyimiz ermənilər uydurma "soyqırımı"ndan ağızdolusu danışıb, saxta sənədlər ortaya çıxarırsa, biz də haqq sözümüzü deməliyik. Niyə bizim son 20 ildəki faciələrimizi hələ də canında və ruhunda daşıyan şəhidlərimiz yada düşməsin, şəhid övladlarımızın min bir əziyyətlə böyüyən balaları, xanımları, valideynləri xatırlanmasın? Bəs dağılan evlər, xarabazara çevrilən kəndlər, şəhərlər? Onlar da şəhidlərimiz kimi bir deyil, beş deyil, minlərlədir axı...

## "İkinci Xocalı"

Özünəməxsus təbii sərvətləri, tarixi abidələri olan qədim yaşayış məskənlərindən sayılan Xocavənd rayonunun işğalından danışarkən "İkinci Xocalı faciəsi" adlandırılan Qaradağlı müsibətindən danışmamaq mümkün deyil. 1992-ci il fevralın 17-də ermənilər rayonun qədim yaşayış məskənlərindən olan Qaradağlı kəndində misli görünməmiş vəhşiliklər törədib, kənd əhalisinin böyük bir qismini xüsusi amansızlıqla qətlə yetiriblər.

İllər ötsə də qan yaddaşımızda yaşayan bu faciələri, onun qurbanlarını bizimlə bərabər sonrakı nəsillər də ehtiramla yad edərək heç vaxt unutmamalıdırlar. Bəlkə ona görə hazırda o faciələrin baş verdiyi ilk günlərdən fərqli olaraq, həmin dövrün ağrı-acıları, fəlakət dolu hadisələri indi daha çox araşdırılır, daha dəqiqliklə sənədləşdirilir, bu mövzuda müxtəlif kitablar yazılır, filmlər çəkilir, televiziyalarda, radiolarda davamlı olaraq verilişlər yayımlanır, müxtəlif araşdırmalar dərc olunur.

Şuşadan, onun işğalından danışanda Qarabağın ən çox yada düşən yaşayış məskənləri - Quşçular, Malıbəyli, Meşəli, Kərkicahan, Turşsu... kimi bu kəndin - Qaradağlının da adı tez-tez xatırlanır. Çünki tale elə yaranışından bu kəndləri o şəhərlə - Şuşa ilə elə bağlamışdı ki, onların biri olmadan o birinin yaşaması mümkün deyildi. Şəhərin dünyaya açılan bir neçə qapısı vardısa, bu kəndin yeganə bir yolu vardı - o da həmin şəhərə aparırdı.

Bir gün düşmənlər, erməni faşistləri o yolu kəsdilər. Əvvəlcə kənd getdi, sonra şəhər...

Faciənin qısa xronikası belədir: erməni terrorçuları 1991-ci ilin 28 iyununda Qaradağlıda 3 nəfəri qadın olmaqla 6 nəfəri diri-diri yandırmışdılar. Həmin ilin sentyabr ayında isə kəndə gedən sərnişin avtobusunun güllələbaran edilməsi nəticəsində 8 nəfər öldürülüb, çoxlu sayda adamlar yaralanıb. Güllə yarası alanlardan 5 nəfəri sonradan dünyasını dəyişib. Bu vəhşiliklər beynəlxalq aləmdə tanınan terrorçu, ASALA-nın rəhbərlərindən olan Monte Melkonyan tərəfindən həyata keçirilib. Ermənilərin "milli qəhrəman" adı verdikləri M.Melkonyan 1993-cü ilin iyununda Azərbaycan əsgəri İbad Hüseynov tərəfindən layiqli cəzasını alsa da, digərləri hələ də azadlıqdadırlar. Ən qanlı hadisələr isə az sonra - 1992-ci il fevralın 17-də baş verdi. Qaradağlı kəndi erməni silahlıları tərəfindən işğal olunaraq yandırıldı. Onlar bu qəhrəman kəndə yalnız aylarla uzanan mühasirədən və günlərlə sürən ağır döyüşlərdən sonra daxil ola bildilər.

Qanlı döyüşlərdə kəndin hər 10 sakinindən biri şəhid oldu. 1992-ci ilin fevralında - Xocalı faciəsindən bir neçə gün əvvəl Qaradağlıda törədilən bu soyqırımında 104 kənd sakini və 15 nəfər xüsusi müdafiə dəstəsinin üzvü əsir götürüldü, onlardan 67 nəfəri erməni faşistləri tərəfindən qətlə yetirildi.

Öldürülənlərdən 10-u qadın, 8-i uşaq idi. İki ailənin hər birindən 4 nəfər şəhid oldu, 42 ailə başçısını itirdi, 150-yə yaxın uşaq yetim qaldı.

Kənddə 200 yaşayış və 1 mədəniyyət evi, 320 yerlik orta məktəb və 25 çarpayılıq xəstəxana binaları və digər obyektlər dağıdıldı. 800 nəfərə yaxın sakin məcburi köçkünə çevrildi.

## Dədə-babaların qisas yolu: qana qan...

"...Girovların başını müharibədə ölmüş ermənilərin qəbirləri üstündə kəsirdilər... Ermənilər əsirləri diri-diri yandırırdılar..."

Aşağıdakı fikirlər o dəhşətlərin şahidi, 1958-ci ildə Qaradağlıda doğulan, 1992-ci ildə ermənilərin girov apardığı, əsirlikdə min bir müsibət görən İlqar Hüseynova məxsusdur:

*- Qaradağlı camaatı arasında elə bir ailə yoxdur ki, erməni vəhşiliyinin vurduğu əzabları yaşamasın, hiss etməsin. Kəndimiz 1992-ci ilin fevral ayında işğal olunsa da, hələ 1991-ci ilin sentyabrında ermənilər Qaradağlı camaatına divan tutmuşdu. 1992-ci il fevral ayının 15-də ermənilər Qaradağlını dörd tərəfdən atəşə tutdular. Evlərin əksəriyyəti alova bürünmüşdü. Atışma iki gün davam etdi. Kənddə qalan 118 nəfərdən 25-i həlak oldu. Dörd nəfər ağır yaralandı. Gecə yaralıları da götürüb yola çıxdıq. Aramızda 10 qadın və 2 uşaq vardı. Ermənilər bizi təqib edirdilər. Patronumuz qurtardığı üçün onlara müqavimət göstərə bilmədik.*

*Hamımızı əsir götürdülər. Kişiləri qadınlardan və uşaqlardan ayırdılar. Bizi ayrı-ayrı maşınlarda erməni qəbiristanlığına gətirdilər. Dedilər ki, 9 nəfər könüllü maşından düşsün. Heç kim yerindən tərpənmədi. Bundan qəzəblənən erməni quldurları avtomatla maşına atəş açdılar. 10-15 nəfər yerindəcə öldü. Təxminən 20 nəfər isə ağır yaralandı. Kənd sakinlərindən biri qaçmaq istədi. Onun bu hərəkəti erməniləri daha da qəzəbləndirdi. Onlar bizi yenidən atəşə tutdular. Ölənlərin sayı 32 nəfərə çatdı. Sonra bizi Xankəndiyə aparıb iki ay orada həbsxanada saxladılar. Həbsxananın pəncərələri yox idi. Hər gün qar yağırdı. Şaxta iliyimizə işləyirdi. Girovların hamısını dizə qədər suyun içində saxlayırdılar. Bizə üç gündə bir dəfə əl boyda qara çörək verirdilər. Ermənilər bizi gündə, ən azı, beş-altı dəfə döyür, müxtəlif işgəncələr verirdilər. Bir neçə nəfər işgəncələrə dözməyib elə həbsxanadaca dünyasını dəyişdi. Armaturla vurub səkkiz nəfərin qabırğalarını qırdılar, ayaqlarını sındırdılar. İki nəfəri isə divara çırpıb beynini partlatdılar. Onlar təkcə kişilərə deyil, qadınlara və uşaqlara da bu cür dəhşətli işgəncələr verirdilər. İki ay sonra Beynəlxalq Qızıl Xaç Cəmiyyətinin köməyi ilə bizi azad etdilər. Girovluqda olan bir neçə nəfər azadlığa çıxandan sonra dünyasını dəyişdi. Həmin vaxtdan illər keçsə də, ermənilərin verdiyi işgəncələrin ağrısı hələ də canımdan çıxmayıb.*

**Novruz Hüseynov:**

*- 17 fevral 1992-ci ildə əsir düşdüm. Bizi maşınlara doldurdular. Yolda saxlayır, istədikləri adamı düşürüb güllələyirdilər. Qardaşım Hüseynov Həbib Həmzə oğlunu da güllələdilər. Mən ağır yaralı idim. "Kəlmeyi-şəhadət"imi oxuduqdan sonra erməniyə dedim ki, "məni də güllələ, qardaşım burda tək qalmasın." Qatilin cavabı bu oldu ki, "səni də o tərəfdə vuracağam". Mən qardaşımın meyitini Xankəndiyə qədər özümlə apardım.*

**Həqiqət Hüseynova:**

*- Ermənilər işğaldan sonra kənddə qalan adamları sıraya düzdülər. Gəncləri bir, yaşlıları başqa bir maşına yığdılar... Meşədən keçəndə maşını saxlayıb Dəmir kişi ilə 15 yaşlı nəvəsini güllələdilər. Şahmurad kişinin alnından gülləni elə vurdular ki, başı paralandı. Sonra maşınla cəsədinin üstündən keçdilər. "Pir" deyilən ağacın yanında Eldarı maşından düşürüb döyə-döyə öldürdülər. Yaşlıların maşınını "Bəylik bağı" deyilən yerdə saxladılar. Cavanlar olan maşını isə silos quyusunun yanına sürdülər. Həmin maşın geri qayıdarkən içərisində az adam qalmışdı. Onların çoxunu öldürüb silos quyusuna tökmüşdülər. Yolda Zahid Xəlilovu qətlə yetirdilər, daha sonra poçtun müdiri Həbib kişinin avtomatla əvvəlcə qollarını, sonra ayaqlarını, ən axırda isə bədənini deşik-deşik etdilər. Nəhayət, bu dəhşətli yolun sonunda Xankəndiyə çatdıq. Bizim yanımızda Xocalıya hücum edəcəklərindən, oranı xarabazara çevirəcəklərindən, öldürdükləri oğlanların başlarından divar hörəcəklərindən danışırdılar.*

**Şahruz Əliyev:**

*- Əsir götürülənlər arasında məktəb yaşlı uşaqlar və 10 nəfər ağbirçək də vardı. Yolda maşınları saxlayır, əsasən məktəbli uşaqları və gəncləri vəhşicəsinə güllələyirdilər. Bir az gedəndən sonra yenə də maşınlar dayandı. Yenə də cavanlardan 10 nəfəri seçib güllələdilər. Güllələnənlərdən biri əmim oğlu Xaliq Əliyev, biri də İltizam Hüseynov idi. Onların qışqırtısı, ah-naləsi hələ də qulaqlarımdan getmir... Mən və qardaşım bir yerdə əsir düşmüşdük. Səhər tezdən erməni quldurları dəyişmək adı ilə 5 nəfəri zirzəmidən çıxarıb apardılar və onlardan bir daha xəbər olmadı. Qardaşım Vətən də onların arasında idi.*

**Əmiraslan Quliyev:**

*- Bizi hər gün qarın üstünə yıxıb döyürdülər. 15-16 gündən sonra bizi Martuniyə (Xocavənd) gətirdilər. Bizi Qaradağlıya aparır, öldürüb silos quyusuna atdıqları meyitləri qazıb çıxarmağı əmr edirdilər. Meyitlər tanınmaz halda idilər. Bir neçə gün ac-susuz öz kəndlilərimizin meyitlərini çıxartdıq. Nəhayət, 46 günlük əsirlik həyatımızın sonunda mən də daxil olmaqla 16 nəfəri və 6-7 meyiti erməni əsiri ilə dəyişdirdilər.*

**Rafiq Quliyev:**

*- Üç gün davam edən ağır döyüşdən sonra mərmimiz qurtardığı üçün ermənilər kəndə daxil oldular və bizi əsir götürdülər. 3 nəfəri diri-diri yandırdılar, 3-4 nəfərin başını kəsdilər, 1 nəfəri lapatka sapı ilə döyə-döyə öldürdülər, bir nəfərin üstündən KaMazla keçdilər... Türmənin həyətində bizi ağzıüstə uzandırdılar və torpaq yeməyə məcbur etdilər. Vəhşilər dubinka və paya ilə yaramın üstünə vururdular. Mənim atamı da orda döyüb öldürdülər.*

...Bütün bu müsibəti törədənləri azərbaycanlılar yaxşı tanıyırdılar. İllərdi bir ölkədə, bir vilayətdə yaşayırdılar. Amma heç biri inanmırdı ki, bu "yazıq, zavallı erməni" lazım gələndə bütün əxlaqi dəyərləri, bəşəri hissləri ayaqlar altına ataraq asanlıqla dünənki qonşusunun qatilinə, cəlladına çevrilə bilər. Vaxtilə ermənilərin bu xüsusiyyətini yaxşı bilən gürcü mütəfəkkiri İlya Çavçavadze əbəs yerə demirdi: *"Ermənilər dost cildində düşməndirlər. Onların nəvazişindən, təbəssümündən qorxduğum qədər açıq düşməndən qorxmuram."* Bax bunu yadda saxlamaq lazımdır.

## A dağlar, qoca dağlar...

Nərgiztəpə Xocavənd rayonunun işğaldan kənarda qalan bir hissəsidir. Tarixi qədim dövrlərə gedib çıxır. Mərhum alim, professor Şamil Cəmşidov tədqiqatlarında bu əraziyə xüsusi diqqət ayıraraq onun Dədə Qorqud boylarında tez-tez xatırlandığını söyləyir, bu əzəmətli abidənin qəhrəmanlarından olan Qaraca Çobanın qəbrinin burada olduğunu dönə-dönə qeyd edirdi. Qarabağ dağ silsiləsinin axırında yerləşən Qaraçux dağı da həmin eposda tez-tez yada salınır. "Qaraçuxun aslanı" həmin dastandadır və qəbri kimi Qaraca Çobanın arxac yeri də Qaraçux dağının döşündən yüz illərdir Ağdamdan, Ağcabədidən, Beyləqandan gələn yollara baxmaqdadır.

Yüz illər boyu insanlarımızın ziyarət yerinə çevrilən bu qədim ərazidə xeyli vaxtdır Xocavənd Rayon İcra Hakimiyyətinin köməyi ilə abadlıq işləri aparılıb, möhtəşəm bir abidə ucaldılıb. Azərbaycan tarixinin son illərini əhatə edən şərəfli bir dövrü də bu abidədə öz əksini tapıb. Bu həm qalibiyyət, həm də şəhidlik abidəsidir. Artıq xeyli vaxtdır ziyalılar, Milli Məclisin deputatları, ali məktəb tələbələri bu abidənin ziyarətinə gəlir, doğma torpaqlara lap yaxından baxa bilirlər. Nərgiztəpədən baxanda Qarabağ da, ora aparan yollar da görünür.

Düşmənin beş addımlığında yerləşən bu abidənin üzərində Azərbaycanın əzəmətli Bayrağı dalğalanmaqdadır. Bu Bayrağı qarşı tərəf də çox yaxşı görür. Artıq o əzəmətli Bayrağın zəfər yürüşü başlayıb. Onun Xankəndidə, Şuşada dalğalanacağı günə - Qələbə gününə çox qalmayıb. O günü yaxın edən isə Azərbaycan Ordusu, Azərbaycan əsgəri və bütün Azərbaycan cəmiyyətinin, gəncliyinin iradəsidir. O gəncliyin arzusu, iradəsini isə ölkə Prezidenti İlham Əliyev belə ifadə edib: *"Bakıda, çadır şəhərciyində doğulan, Qarabağdan olan hər bir gənc Qarabağa qayıtmaq arzusu ilə yaşayır. Qarabağ heç vaxt unudula bilməz!"*


Foto F.BAĞIROVUNDUR

**Bəxtiyar QARACA,**
**"Azərbaycan"**